

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 133 (21.794)

*18 iyul 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

İyulun 17-də Latviya Prezidentinin iqamətgahında – “Riqa” qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin təkbətək görüşü, daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Sonra Latviya Respublikasının Prezidenti Raymonds Veyonis və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Respublikasının Seymində olub.

Həmin gün Riqada Latviya-Azərbaycan biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Raymonds Veyonis biznes forumun açılış mərasimində iştirak ediblər.

İyulun 17-də Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olmuşdur

İyulun 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları çalışdıqları sahələrdə fərqlənərək ölkəmizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik etmiş, onlara təşəkkürünü bildirərək demişdir: Ölkəmizdə bütün sahələr inkişaf etdirilir. Bu inkişafda fərqlənənlərin əməyi isə dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. O ölkədə inkişaf təmin olunur ki, orada sabitlik, müəyyən olunmuş inkişaf yolu və dövlət-xalq birliyi olsun. Bunların hər biri Azərbaycanda vardır. Ulu öndərimiz Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda ölkəmizdə siyasi hakimiyyətə gəlişi ilə Azərbaycanda milli dövlətçiliyin və inkişafın əsası qoyulmuşdur. Əgər 1969-cu ilə qədər Azərbaycan Sovetlər Birliyinin aqrar əlavəsi kimi tanınırdısa, artıq ulu öndərin rəhbərliyi ilə 1970-ci ildən sonra ölkəmiz Sovetlər Birliyinin inkişaf etmiş respublikaları sırasında birinci yeri tutaraq dotasiyasız yaşayan respublikaya çevrilmişdir. Bununla da ölkəmizin gələcək müstəqilliyi üçün əsas yaradılmışdır. Azərbaycanın müstəqillik əldə etdikdən sonra qısa zamanda inkişaf etməsi və müstəqil dövlət kimi yaşaması da ulu öndərin həmin dövrdə həyata keçirdiyi tədbirlər nəticəsində mümkün olmuşdur.



Ali Məclisin Sədri demişdir: Azərbaycanda müstəqilliyin təməli 1969-cu ildə qoyulubsa, onun inkişafı isə ulu öndərimizin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Bu dövrdə qəbul edilən qərarlar və həyata keçirilən islahatlar Azərbaycanın müstəqil dövlət kimi inkişafını təmin etmişdir. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi yol bu gün də ölkəmizdə uğurla davam etdirilir. Ölkə Prezidentinin bu yola sədaqətinin nəticəsidir ki, Azərbaycanda inkişaf, sabitlik və dövlət-xalq birliyi vardır. Bu gün ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Bu inkişafın hərəkətverici qüvvəsi dövlətdirsə, onun təminedici qüvvəsi xalqdır. Ölkəmizdə davamlı inkişafın təmin olunması, müstəqilliyimizin daha da möhkəmləndirilməsi həm də dövlət-xalq birliyinin nəticəsidir. Bu inkişafda fərqlənənlərin dövlət mükafatları ilə təltif olunması isə insan əməyinə verilən qiymətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri təltif olunanları bir daha təbrik etmiş, onlara işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim etmişdir.

Təltif olunanlardan Fazil Ələkbərov, İbrahim Rəsulov, Kəmalə Qurbanova, Rasim Hüseynov, Əli Rzayev, Natiq Əliyev və Turqayə Əliyeva minnətdarlıq edərək demişlər ki, Naxçıvanda ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrində inkişaf təmin edilib. Bu inkişafda pay sahibi olub dövlət mükafatları ilə təltif olunmaq ikiqat şərəfdir. Təltif olunanlar əmin etmişlər ki, ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən inkişaf, tərəqqi və sabitlik yoluna bundan sonra da sadiq qalacaq, göstərilən etimadı öz fəaliyyətləri ilə doğruldacaqlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qarahəsənli kəndində kompleks quruculuq işləri aparılır

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərindən Şərur rayonunun Qarahəsənli kəndinə də pay düşüb. Aparılan kompleks abadlıq-quruculuq işləri çərçivəsində tamamilə yenidən qurulan kənd tam orta məktəbinin binası 198 şagird yerlik nəzərdə tutulub. İki mərtəbədən ibarət olan bu tədris müəssisəsinə bir korpus da əlavə edilir. Burada geniş və işıqlı sinif otaqları, kompüter otağı və elektron lövhəli siniflər, kimya, biologiya, fizika və hərbi kabinələr, kitabxana, bufet yerləşəcək. Hazırda binanın fasad hissəsinə yerdən, təxminən, bir metr hündürlükdə cilalanmış travertin üzlük bərkidilir ki, bu da divarlarda baş verə biləcək aşınmanın qarşısının alınması məqsədi daşıyır.

Kənd mərkəzi üçün nəzərdə tutulmuş ikimərtəbəli yeni inzibati binada işlər davam etdirilir. Bu binada icra nümayəndəliyi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, mədəniyyət evi, kitabxana, iclas zalı, feldşer-mama, baytarlıq və polis sahə məntəqələri, poçt, ATS üçün otaqlar ayrılacaq.

Kənddə inşa olunan daha bir obyekt isə birmərtəbəli xidmət mərkəzinin binasıdır. Xidmət mərkəzində ərzaq və təsərrüfat malları mağazaları, ət satışı dükanı, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərəcək.

Hər üç obyekt mərkəzləşdirilmiş istilik sistemi ilə qızdırılacaqdır. Bunun üçün iki qazanxana hazırlanır. Həyətdə abadlıq işləri görüləcək, yaşıllıq və gülkarlıqlar üçün yerlər düzəldiləcək. Piyada yollarına isə kilid daşlar, kənarlarına bordürlər düzüləcək.

Qeyd edək ki, obyektdə yerli inşaat materiallarından istifadə olunur, təhlükəsizlik qaydalarına ciddi əməl edilir. İnşaatçılar hər üç binanın vaxtında istifadəyə verilməsi üçün səylə çalışırlar.

**Xəbərlər şöbəsi**

Kənd təsərrüfatı

# Bərəkətli olsun...

***Dünən***

“Şərq qapısı” qəzetinin ötən əsrin 90-cı illərinin əvvəllərindəki nömrələrinin birində dərc edilən “Taxılımız bol olarsa” sərlövhəli yazıda müəllif – Babək rayonundakı “Tingçilik” sovxozunun baş aqronomu Qabil Tağıyev digər sahələrlə yanaşı, kənd təsərrüfatında da yaşanan geriliyi ürəkağrısı ilə qələmə alır, yeganə çıxış yolunu məhz torpağa bağlılıqda görürdü. Həmin yazıdan müəyyən bir hissəni təqdim edirik: “Son üç-dörd ilin ictimai-siyasi hadisələri muxtar respublikanın iqtisadiyyatına da böyük ziyan vurub. Qıtlıq yaşanıb. Bahalıq baş alıb gedir. Adamların yaşayış səviyyəsi xeyli aşağı düşüb. Bir mütəxəssis kimi bunun səbəbini onda görürəm ki, bol suyu, geniş, münbit torpağı, günəşli günləri çox olan muxtar respublikamızda son illər kənd təsərrüfatının inkişafına laqeyd münasibət göstərilir. Torpaqdan ikiəlli yapışmasaq, iqtisadi böhrandan çıxa bilməyəcəyik. Axı nə üçün bizim hər cür imkanımız ola-ola, özümüzü dolandırmağa gücümüz çatmasın. Torpağın sinəsində bütün kənd təsərrüfatı bitkiləri ilə yanaşı, taxıl da əkib-becərməklə özümüzü dolandıra bilərik. Əgər taxılımız bol olarsa, yaxşı yaşayar, heç kəsə əl açmaz, heç kəsin yoluna gözümüzü dikmərik. Amma biz taxılçıların gileyi də az deyil. Birinci gileyimiz ondan ibarətdir ki, istehsal etdiyimiz taxılı bizdən ucuz qiymətə alırlar. İkincisi, texnika sarıdan da çətinlik çəkirik. Üstəgəl, bazar iqtisadiyyatına keçid dövründə bütün məhsulların bahalaşması da biz kənd əməkçilərinin əl-qolunu bağlayıb”.

***Və bu gün***

“O günlərdən bir o qədər də çox vaxt keçməsə də, çox şey dəyişib. Nədir dəyişən? – sualını mənə ünvanlasanız fəxrlə deyərəm ki, kəndlinin həyatı, gün-güzəranı, yaşadığı kənd. Özü də bu dəyişiklik əsrə bərabərdir. Dəyişiklik sözünü bir neçə dəfə təkrar etdim, amma məni qınamayın. Mənim kimi orta və yaşlı nəslin nümayəndələri ötən əsrin sonlarında Naxçıvanda çörəklə imtahana çəkildiyimiz günləri yaxşı xatırlayırlar. O günlərin acı xatirələrini tez-tez yada salıb bu günümüzlə fərəhlənirik. Oğul, çörəksiz ev suyu sovrulmuş dəyirmandır”, – deyən təcrübəli bioloq, şıxmahmudlu torpaq mülkiyyətçisi Zahid Tağıyev Naxçıvan istehsalı olan “NAZ Lifan” markalı maşının pəncərəsindən ətraf əraziləri nişan verir və söhbətə belə davam edir: – Görün, bu il nə qədər payızlıq taxıl əkini aparılıb. Heç uzağa getmirəm. Rəqəmlərin dili ilə danışsaq, bizim bu Şıxmahmud və Xəlilli kəndlərinin 672 hektar əkinəyararlı torpağı var ki, onun da 370 hektarında taxıl əkilib. Ötən illə müqayisədə 20 hektar ərazi əkin dövriyyəsinə qatılıb. Sizi inandırım ki, bu yaşıma gəlmişəm, muxtar respublikada builki qədər taxıl əkildiyini görməmişəm. İnsanlar indi torpaqdan ikiəlli yapışır, öz zəhməti hesabına təsərrüfatını qurur, gün-güzəranını yaxşılaşdırır. Mən özüm 10 hektara yaxın sahədə taxıl əkmişəm. Zəmilərdə bol məhsul yetişib”.



Zahid müəllimin sahəsinə yaxınlaşırıq. “Naxçıvan Aqrolizinq” ASC-yə məxsus müasir texnika artıq biçinə hazırlaşır. “Başlayın uşaqlar, işiniz avand, əliniz bərəkətli olsun!” – deyir müsahibimiz. Yerdən də xeyir-dua səsləri yüksəlir: “Bərəkətli olsun!” Qocaman təsərrüfatçının sevincini duymaq çətin deyil. “Çətin olan ötən əsrin sonlarında yaşadığımız günlər idi”,– deyir Zahid müəllim. Namərd ermənilər o vaxt muxtar respublikanın sərhəd kəndlərinə aramsız hücumlar edir, kəndli bir əlində bel, bir əlində tüfəng çöllərdə əlləşib-vuruşurdu. Kim idi taxıl hayına qalan? Başımızın üstünü alan qara buludlar bu gündən sabaha olan ümidimizi, inamımızı itirmişdi. Muxtar respublika işğal təhlükəsi ilə üz-üzə idi. Buna görə də istehsal olunan az miqdardakı məhsul elə sahədə qalıb məhv olurdu. Uzun danışıb ovqatınızı təlx etmək istəmirəm. Bir də ki, ay oğul, müdriklərdən qalma bir söz var. Həyatda o kəslər qalibdir ki, onlar yekdil qərar qəbul edə bilirlər. Fikrimcə, ulu öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə dəvət edilməsi, əbədi və dönməz olan müstəqilliyimizin qorunub saxlanılması Azərbaycan xalqının ən böyük uğurlarından biridir. İndi kəndlinin əməyi yüngülləşdirilib, onlara əkin-biçin üçün dövlət tərəfindən maddi və mənəvi köməkliklər göstərilir, gübrə və yanacaq verilir. Açıq danışacağam. Kənd təsərrüfatı sahəsində ixtisaslaşmış, təcrübəli mütəxəssislərin yerlərdə olması, taxılın əkinindən tutmuş ta ki yığımınadək verdikləri aqrotexniki məsləhətləri şəxsən mən ən böyük mənəvi dəstək hesab edirəm.

Taxıl biçini kampaniyası yekunlaşanadək Fövqəladə Hallar Nazirliyinin məsul şəxsləri də bizimlə görüşlər təşkil edir, biçini itkisiz və təhlükəsiz şəkildə başa vurmaq üçün maarifləndirici söhbətlər aparırlar. Məhsuldarlığı ilə seçilən “Bezostaya-1”, “Qobustan”, “Bərəkətli - 95”, “Araz” və digər toxum sortlarından istifadə edirik. Özü də kəndimizdə mənim kimi sahibkarlar kifayət qədərdir. Əyyub 15, Xeybər 12, Çərkəz 10, Çölbəyi isə 8 hektar sahədə payızlıq taxıl əkini aparıb. Çörəyin qədrini bilənlər onun bolluğunu da yarada biliblər. Bu diyar blokada şəraitində yaşamasına baxmayaraq, özünün istehsal etdiyi məhsulları ilə daxili bazarın tələbatın ödəmək gücündədir. Bir sözlə, çörəyimiz öz təknəmizdəndir. Çörək ətrindən də gözəl ətir ola bilməz. Allah bərəkət versin!

– Bağışlayın, söhbətinizi bölürəm. Ata, kombaynçı İntiqam deyir ki, sahənizdə bol məhsul yetişib. Məhsuldarlıq 30-35 sentner olacaq.

Gələn Zahid müəllimin oğlu Gündüzdür.

Ardınca həmsöhbətim: – Məni üzrlü sayın, getməliyəm. İşin qızğın çağıdır. Gərək biçin vaxtı uşaqların yanında olam. Bu təsərrüfatçılıq ənənələrini onlara da aşılamağa çalışıram. Qoy bilsinlər ki, ömür zəhmətlə ucalanda daha mənalı olur. Torpağı sevməli, qədir-qiymətini bilməli, onun yolunda tər axıtmalıdırlar. Bu ali keyfiyyətlər gənclərimizə nümunə göstərilməlidir. Əkinçi ildə iki dəfə sevinir. Bir torpağa toxum atanda, bir də elin sərvəti olan taxıl biçiləndə. İndi Zahid müəllimin timsalında bütün naxçıvanlı torpaq mülkiyyətçiləri bu sevinci birgə yaşayırlar.

*Yenə əvvələ qayıdıram. “Tingçilik” sovxozunun baş aqronomu Qabil Tağıyevin arzuları sanki bu günlərə hesablanmışdı. Artıq torpağın sinəsində bütün kənd təsərrüfatı bitkiləri ilə yanaşı, taxıl da əkib-becərməklə özümüzü dolandıra bilirik. Taxılımız boldur, yaxşı yaşayır, heç kəsə əl açmır, heç kəsin yoluna gözümüzü dikmirik. Nə deyək, bunu yaradan əllər var olsun!*

**Muxtar RZAZADƏ**
**“Şərqin səhəri” qəzetinin redaktoru**

## Kartof sahələrində bol məhsul yetişdirilib



Sədərək rayonunun iqtisadiyyatına xeyli gəlir gətirən sahələrdən biri kartofçuluqdur. Rayonun məhsuldar torpaq sahələri burada yüksəkkeyfiyyətli kartof istehsalına imkan verir. Yaradılan şərait, dövlət tərəfindən verilən kredit və əldə edilmiş məhsuldar toxum sortları torpaq mülkiyyətçilərinin ilbəil qazandıqları uğurların artmasında başlıca səbəblərdir. Ona görə də torpaqları bərəkətli olan bu bölgədə hər il yüksəkkeyfiyyətli məhsul istehsal edilir. Kartofçuluqda təcrübə qazanan torpaq mülkiyyətçiləri rayon və Naxçıvan şəhər əhalisinin bu məhsula olan tələbatının ödənilməsində mühüm rol oynayırlar. Ona görə də bu sahə ilə məşğul olan sədərəklilər səy və bacarıqlarını əsirgəmir, ildən-ilə uğurlarını artırırlar.

Bu cəhətdən 2017-ci ili də rayonun kartof əkib-becərənləri üçün uğurlu hesab etmək olar. Belə ki, bölgənin torpaq mülkiyyətçiləri keyfiyyətli toxum sortları ilə təchiz olunmuş, 102 hektar sahədə əkin aparmış, sahələrə vaxtında və aqrotexniki qaydalar əsasında qulluq göstərmişlər. Nəticədə, çəkilən zəhmət hədər getməmiş, təsərrüfat sahibləri sahələrdə bol məhsul yetişdirməyə nail olmuşlar. Onlardan Elsevər Əhmədov, Nadir Rəhimov və başqaları becərdikləri kartofun tədarükünə hazırlaşırlar. Hər il olduğu kimi, bu il də torpaq mülkiyyətçiləri bol məhsul əldə edəcəklərinə inanırlar.

**Xəbərlər şöbəsi**

# Aztəminatlı ailələrə dövlət dəstəyi həyata keçirilən sosial siyasətin mahiyyətini təşkil edir

***Yoxsulluq, işsizlik bütün dövrlərdə cəmiyyəti narahat edən əsas sosial problemlərdən biri olub. Dünya ölkələri bu ciddi problemlərlə tarixboyu mübarizə aparıb, onun aradan qaldırılmasına çalışıblar. Azərbaycanda da işsizlik problemləri hər zaman aktual sayılıb, yalnız ötən əsrin 70-ci illərindən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə respublikamızda əhalinin məşğulluq məsələləri diqqət mərkəzində saxlanılıb, müxtəlif sahələrin inkişafı ilə əlaqədar yeni iş yerləri yaradılıb. Bu da ölkə əhalisinin sosial rifahının ilbəil yüksəlməsinə imkan verib. Ancaq müstəqilliyimizin ilk illərində ölkəni bürüyən siyasi böhran və iqtisadi tənəzzül əhalinin həyat şəraitinin aşağı düşməsinə səbəb olub, nəticədə, yoxsulluq səviyyəsi yüksəlib.***

1993-cü ildə ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu dövrdən başlayaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yoxsulluğun aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər görülüb, bu sahədə dövlət proqramları qəbul olunaraq icra edilib. Xüsusilə ötən dövrdə ölkəmizdə regionların sosial-iqtisadi inkişafı, eləcə də yoxsulluğun azaldılması və davamlı inkişaf haqqında qəbul edilmiş dövlət proqramları əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, yoxsulluğun azaldılmasına şərait yaradıb.

Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında da ötən dövr ərzində əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəlməsi, onların etibarlı sosial müdafiəsinin təşkili, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olanların sosial təminatlarının gücləndirilməsi və yoxsulluğun azaldılması istiqamətində uğurlu nəticələr əldə edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)” və 2009-cu il 28 may tarixli Fərmanı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası infrastrukturun genişlənməsini, sosial xidmətlərin keyfiyyətinin yüksəlməsini təmin edib. Yeni istehsal sahələrinin istifadəyə verilməsi əhalinin məşğulluğunun artmasına və yoxsulluq səviyyəsinin azalmasına səbəb olub. İnsan amilini əsas tutan sosialyönümlü iqtisadi siyasət nəticəsində əhalinin gəlirləri artıb və həyat şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Hamımıza məlumdur ki, müasir dövrdə əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması və onlardan səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş və icrası uğurla başa çatan “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” əmək bazarının tənzimlənməsində mühüm nəticələr əldə edilməsinə şərait olub, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar yaradılıb. Növbəti dəfə Ali Məclis Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” işaxtaranların səmərəli məşğulluğuna, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, nəticədə, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə hərtərəfli şərait yaradıb.

Qeyd edək ki, məşğulluğun artırılması üzrə hazırda icrası davam etdirilən dövlət proqramına əsasən muxtar respublikada ailələrin özünüməşğulluğunun təmin edilməsi ilə əlaqədar ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması da diqqətdə saxlanılır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən uzun müddət ünvanlı dövlət sosial yardımı alan ailələrə fərdi təsərrüfatlarını qurmaq üçün müvafiq köməkliklər göstərildi. Belə ki, muxtar respublikanın Şərur, Babək, Ordubad və Culfa rayonları üzrə aztəminatlı 15 ailə müəyyənləşdirilərək onlara fərdi təsərrüfatlarını qurmaq üçün “Simmental” cins inəklər verildi. Bu dövlət qayğısından yararlanan təsərrüfat sahiblərindən biri də Babək qəsəbəsində yaşayan Cəsarət Cəfərovdur. Sahibkarla öz təsərrüfatında görüşüb söhbət etdik. İlk söhbətimiz onunla tanışlıqdan başladı. Müsahibimizin dediklərindən:

– 42 yaşındayam, ailəmizin 6 nəfər üzvü var. Uzun illərdir, aztəminatlı ailə kimi dövlətimiz tərəfindən hər ay sosial yardımla təmin olunurduq. Eşidəndə ki, bizim kimi ailələrə fərdi təsərrüfat yaratmaq üçün yardım ediləcək, çox sevindim. Bildirmək istərdim ki, bizim ailə ata-babadan təsərrüfatla, xüsusilə heyvandarlıqla məşğul olub. Uzun illər mal-qara saxlamışıq. Yəni bu sahə bizim üçün yad deyil, müəyyən təcrübəmiz var. Müvafiq qurumlardan öyrənəndə ki, ailəmiz də belə dövlət dəstəyindən yararlanacaq, qeyd etdiyim kimi, çox sevindik. “Simmental” cins inəklər haqqında məlumatımız vardı. Bilirdik ki, həm ətlik, həm də südlük baxımından yerli cinsdən olan iribuynuzlu heyvanlardan fərqlənir, məhsuldarlığı yüksəkdir. Əlavə olaraq, cins malqara veriləcək təsərrüfat sahiblərinin müvafiq kurslara cəlb olunması bizi daha da ruhlandırdı. Birhəftəlik kurs müddətində biz aidiyyəti təsərrüfatlarda olduq, təcrübəli baytarlar öz biliklərini bizimlə bölüşdülər. Bu isə bizim “Simmental” cins inəklər barədə daha ətraflı məlumatlar almağımıza səbəb oldu. Bununla yanaşı, müvafiq qurumların nümayəndələri tərəfindən mal-qara saxlanılan tövlələrə də baxış oldu, heyvanın saxlanacağı şəraitlə bağlı müəyyən tövsiyələr aldıq. Nəhayət, iyun ayının 14-də ailəmizə verilən cins mal-qara ilə təsərrüfatımızın əsasını qoyduq.

– Növbəti hədəfləriniz nə olacaq? – sualımıza isə sahibkar belə cavab verdi:

– Əlbəttə, hər bir işdə hədəf olmalıdır. Onu deməliyəm ki, dəyəri min manatlarla ölçülən bu mal-qaranın bizə verilməsində əsas məqsəd ailə üzvlərimizin məşğulluğudursa, digər tərəfdən bu cinsdən olan heyvanların sayının və heyvandarlıq məhsulları istehsalının həcminin artırılmasıdır. Atalarımız həmişə deyərmişlər ki, bir sağmal inək bir ailənin dolanışığını təmin edir. Buna görə də çalışacağıq ki, əvvəlcə heyvanın baş sayını artıraq. Bunun üçün lazımi imkanlarımız var, həyətyanı sahəmiz və ayrıca yem ehtiyatı üçün torpaq sahəmiz mövcuddur. Ailə üzvlərimizin də bu işə marağı böyükdür. Ümid edirəm ki, təsərrüfatımızı genişləndirməyi bacaracağıq. Yeri düşmüşkən, bu işə başlayandan, sağ olsunlar, aidiyyəti dövlət orqanlarının nümayəndələri işimizlə mütəmadi maraqlanırlar, lazımi köməkliklər edə biləcəklərini deyirlər. Hamısından razıyıq, bu işdə zəhməti olanların hər birinə öz minnətdarlığımızı bildiririk. Qəzetiniz vasitəsilə demək istəyirəm ki, dövlətimizin bizə göstərdiyi bu qayğıya, dəstəyə əməli işimizlə cavab vermək üçün səylə çalışacağıq.

Sahibkar Cəsarət Cəfərova işində uğurlar arzulayıb təsərrüfatdan ayrılırıq.

Qeyd etmək lazımdır ki, bu gün muxtar respublikamızda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi üçün lazımi addımlar atılır, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələri mənzillərlə, avtomobillərlə təmin olunur. Bütün bunlar, ölkə başçısının da dəfələrlə öz çıxışlarında dediyi kimi, aparılan siyasətin sosialyönümlü olduğunun göstəricisidir. Muxtar respublikamızda aztəminatlı ailələrə öz təsərrüfatlarını yaratmaq üçün belə dəstəyin göstərilməsi isə həyata keçirilən sosial siyasətin mahiyyətini bir daha təsdiq edir.

**✍ Səbuhi HƏSƏNOV**

## Gənclər Mərkəzi gənclərin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır



***Hər bir ölkənin inkişafında və gələcəyində sağlamdüşüncəli, qətiyyətli, bilikli, mənsub olduğu xalqın milli və mənəvi dəyərlərini yaxşı mənimsəmiş gənclər mühüm rol oynayır. Buna görə də gənclərin düzgün yetişdirilməsi, onların lazımi bilik və vərdişlərə yiyələnmələri qarşıda duran əsas vəzifələrdən biridir. Çünki dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı peşəkar kadrların hazırlanmasından, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Gənclərin potensialından düzgün istifadə, bu istiqamətdə görülən işlər, şübhəsiz ki, həmin dövlətin gələcəyinə hesablanmış siyasətin tərkib hissəsidir.***

Bəs şəhərimizdəki Gənclər Mərkəzi bu istiqamətdə hansı işləri görür? Elə bu sualla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayevə müraciət etdik. O, bizimlə söhbətində əvvəlcə dövlət-gənclər siyasətindən danışaraq bildirdi ki, müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, onların müxtəlif sahələrdə irəli çəkilməsi, uğurlarının qiymətləndirilməsi bu siyasətin əsasını təşkil edir. Xüsusilə son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisində gənclərlə iş, bu sahədə qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr, verilən konkret tapşırıqlar, bu mənada, mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı gənclərə göstərilən yüksək diqqət və qayğının növbəti ifadəsidir. Fərmana əsasən Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı” təsis olunmuş, kitaba adları düşmüş istedadlı gənclərə təqaüdün verilməsi ilə bağlı qaydalar təsdiq edilmişdir. Həmçinin gənclər üçün Naxçıvan şəhərində Gənclər Mərkəzi inşa olunmuş, dövlət-gənclər siyasətinin davamı olaraq Ali Məclis Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada yaradılmış Gənclər Fondunun fəaliyyəti təmin edilmişdir. Bütün bunlar isə gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Məmməd Babayev qeyd etdi ki, tələbələrlə iş Gənclər Fondunun keçirdiyi bütün layihə və tədbirlərin prioritet istiqamətini təşkil edir. Həmçinin gənclər kateqoriyasına aid edilən yaş qruplarının bir hissəsi – 14-18 yaş qrupunda olan yeniyetmə və gənclər də tədbirlərə cəlb olunur.

Mərkəzdə mütəmadi olaraq muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında müxtəlif idman yarışları, mədəni tədbirlər, bilik yarışları, film nümayişləri, muzey ekskursiyaları təşkil olunur. Muxtar respublikamızda yaşayan istedadlı gənclərin üzə çıxarılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində gənclər arasında yaradıcılıq müsabiqələrinin keçirilməsi də daim diqqət mərkəzində saxlanılır, müxtəlif rəsm, inşa yazı, foto, şeir, film, elmi məqalə, publisistika və digər növdən olan müsabiqələr keçirilir. Bununla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlara vətənpərvərlik hisslərinin aşılanması, bu qrupdan olan istedadlı uşaqların üzə çıxarılması məqsədilə onlar arasında da müxtəlif vaxtlarda yazı, şeir, mahnı və rəsm müsabiqələri keçirilir. Həmin tədbirlər bu kateqoriyadan olan yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır.

2014-cü il aprel ayından başlayaraq Gənclər Mərkəzində Gənclər Fondunun təşkilatçılığı ilə ingilis, rus və fransız dilləri üzrə hazırlıq kursları keçirilir. Müasir informasiya-kommunikasiya texnologiyaları və xarici dilin tədrisi üçün lazım olan avadanlıqlarla təmin edilmiş linqafon kabinələrində dövlət vəsaiti hesabına həyata keçirilən kurslarda müxtəlif sahələrdə təhsil alan və ya işləyən gənclərin iştirakı, xarici dilləri mənimsəmələri üçün hər cür şərait yaradılıb. 2014-cü ildən ötən müddət ərzində 1500-dən çox gənc kurslara cəlb olunub. Bundan başqa, 22 muzey bələdçisi də xarici dil kurslarında iştirak edib. Hazırda kurslarda qeydiyyatdan keçmiş gənclərin sayı 1066 nəfərdir.

Söhbət əsnasında onu da öyrəndik ki, Gənclər Fondunun aidiyyəti təşkilatlarla birlikdə keçirdiyi tədbirlərdə gənclərin intellektual inkişafı daim diqqət mərkəzində saxlanılır, gənclər arasında intellektual hərəkatın formalaşdırılması, sağlamdüşüncəli, geniş dünyagörüşlü gənclərin yetişdirilməsi üçün müntəzəm olaraq intellektual oyunların keçirilməsi təmin olunur.

Mərkəzdə “Xəmsə” intellektual oyununun keçirilməsi üçün yaradılmış intellektual oyun zalından və müasir avadanlıqlardan səmərəli istifadə edilərək yeniyetmə və gənclərin iştirakı ilə mütəmadi olaraq “Nuh yurdu”, “Nə? Harda? Nə zaman?”, “Brain Ring” intellektual oyunları keçirilir.

Müsahibimiz bildirdi ki, indiyədək gənclərin daha çox rəğbətini qazanmış “Nuh yurdu” intellektual oyunu üzrə muxtar respublikanın bütün rayon mərkəzlərində yeniyetmə və gənclər arasında birinciliklər keçirilib, Gənclər Mərkəzində isə muxtar respublika və zona çempionatları təşkil olunub. Həmçinin burada “Lira” musiqili intellektual oyunu və qeyri-hüquq fənlərində təhsil alan gənclər arasında hüquq fənləri üzrə “Nuh yurdu” intellektual oyunu da təşkil edilib.

2013-cü ildən başlayaraq müntəzəm şəkildə muxtar respublikamızda kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulaq İstirahət Mərkəzində gənclərin yay məktəbləri təşkil olunur. Bu məktəblərdə və həftəsonu istirahətlərində sağlamlıq imkanları məhdud yeniyetmə və gənclərin, aztəminatlı ailələrin uşaqlarının da iştirakına xüsusi diqqət yetirilir.

Bütün bu faktlar belə deməyə əsas verir ki, bu gün muxtar respublikamızda gənclərlə iş sahəsində aparılan tədbirlər gəncliyin inkişafına təkan verir. Onların vətənpərvərlik, ulu öndər Heydər Əliyevin Azərbaycançılıq və dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli və mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə olunmasında böyük rol oynayır. Gənclər üçün yaradılan imkanlar onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında daha da yaxından iştirakına stimul verir.

**Gülcamal TAHİROVA**

***Yeni turizm marşrutlarının yaradılıb test edilməsi və onların turistlərin tələbatlarına uyğun şəkildə dizayn olunması turizmin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında çox sayda turizm marağı kəsb edən yerlər arasında Nehrəm kəndi istiqamətinə təşkil olunan turizm marşrutu da maraq doğurur.***

*Yurdumuzu tanıyaq və tanıdaq*

## Naxçıvan-Nehrəm turizm marşrutu



Nehrəm Naxçıvan Muxtar Respublikasının iri kəndlərindən biridir. Bu kənd özünün qədim tarixi, xalqımıza məxsus yaxşı qorunub saxlanılmış adət-ənənələri və müasirliyi ilə tarix, mədəniyyət həvəskarları üçün maraqlı ekskursiya məkanıdır. Nehrəm həm də Naxçıvan şəhərinə yaxın olan ən iri yaşayış məntəqəsidir. Əhalisi artıq 15 min nəfərə çatmış bu yaşayış məntəqəsi Naxçıvan şəhərindən 9 kilometr, Babək qəsəbəsindən isə cəmi 4 kilometr məsafədə, Araz çayının sol sahilində yerləşir. Rayon mərkəzindən keçməklə Naxçıvan şəhəri ilə bütün gün ərzində hər 10-12 dəqiqədən bir müntəzəm sərnişin nəqliyyatı əlaqələri vardır.

Nehrəmin turizm cazibədarlığı onun maraqlı tarixi, müasir inkişafı, insanlarının məşğuliyyəti, torpağa bağlılığı ilə diqqəti cəlb edir. İlk olaraq, bu kəndin adı çoxlarına yaxşı tanış olan bir toponim kimi, ümumiyyətlə, Naxçıvanın qədim tarixi ilə də həmahəngdir. Tarixçi araşdırmaçılar tərəfindən Naxçıvan, Nuhçıxan, Nehrəm, Nəhəcir kimi adların bəşəriyyətin ikinci atası hesab edilən Nuh Peyğəmbərin adı ilə bağlı olduğunu göstərməsi bu yaşayış məntəqələri arasında Nehrəmə olan marağı da artırır. Görkəmli tədqiqatçıların əsərlərində də sübut olunduğu kimi, etimologiyası Nuh Peyğəmbərlə bağlı hesab olunan Nehrəmdə xalqımızın ən qədim mədəniyyətinin izlərinə rast gəlmək olar.

Nehrəm inkişaf etmiş yaşayış məntəqəsidir. Bu həm nehrəmlilərin təsərrüfat ənənələri, həm buradakı müasir infrastruktur şəraiti, həm də Nehrəmdəki tarixi-dini və mədəni sahədəki nailiyyətlərə aid edilə bilər. Kənddə son illər ərzində istifadəyə verilmiş sosial-mədəni obyektlər, tikilən yaraşıqlı fərdi evlər, çəkilən hamar yollar getdikcə böyüyən kəndin simasını daha da gözəlləşdirib. Nehrəmdə yaşadılan qədim el adətləri, qeyri-adi ənənələr, yaşlı insanların həyat tərzində qorunub saxlanılmış milli elementlər bu kəndə gəlmiş qonaqlarda böyük təəssürat yaradır. Nehrəmə gəlmiş turistlər burada XVIII əsrə aid memarlıq abidəsi olan İmamzadə binası və Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi ilə tanış olub, kənd üsulu ilə hazırlanmış daş küftəsi, yarpaq dolması, əriştə aşı, təndir lavaşı, çölmək pitisi, odunla bişirilən sac lavaşı, təndir kababı kimi milli yeməklərimizdən dadmaq imkanı əldə edərlər. Türk xalqlarına məxsus qış azuqəsi olan qara qovurmalı və çoban kirmidi ətirli bozbaş Nehrəmdə özünəməxsus şəkildə hazırlanır.

Nehrəm camaatı inanclarına sadiq insanlardır. Müstəqillik illərimizdə isə bu inamın yaşanması, milli və ümumbəşəri duyğuların təbliği üçün hər cür şərait yaradılıb. Nehrəmdə hazırda mövcud olan çox sayda məscid və bir imamzadə dindarların ixtiyarına verilib. Ötən il açılışı olmuş yeni məscid isə dindarları daha çox sevindirib.

“Nehrəm” deyəndə, şübhəsiz, yazıçı Cəlil Məmmədquluzadə yada düşür. Böyük ədibin hələ yüz il öncəsindən xalqımızın təhsili, maariflənməsi və müasirləşməsi yolunda bu kənddə həyata keçirdiyi illər xalqımızın maarifçilik tarixində mühüm yer tutur. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə bu kəndə göstərdiyi diqqət və qayğı, xüsusən 1990-cı ildə Moskvadan Naxçıvana qayıdandan sonra Nehrəmlə əlaqələri, buradakı tanınmış adamlarla sıx münasibətləri, kənd adamları ilə keçirdiyi görüşlər Nehrəmin yaxın keçmişində öz izlərini qoymuş və bu xatirələr indi də nehrəmlilərin yaddaşından silinməyib. Xüsusən Naxçıvanın blokada illərində ulu öndərin tapşırıq və tövsiyələri Nehrəmdə o dövrdə mövcud olmuş çətinliklərin aradan qaldırılması üçün çox həyati olub.

Naxçıvanda kənd təsərrüfatı sahəsində brend səviyyəsinədək tanınan Nehrəm pendiri, Nehrəm qarpızı, tut doşabı, Nehrəm qovurması kimi məhsullar təkcə muxtar respublikada deyil, ondan kənarda da yaxşı tanınmaqdadır. Kənddə yüksəkkeyfiyyətli ərzaq məhsulları istehsal edən iri fermerlər var.

Nehrəmdə təkcə yerli əhalinin deyil, turistlərin də sosial tələbatlarının ödənilməsi üçün iri ticarət mərkəzi, məişət evi, geniş qapalı bazar kompleksi, elektron xidmətlər, 24 saat xidmət göstərən əczaxana və səhiyyə xidmətləri də yaxşı təşkil olunub. Son illər salınmış müasir standartlara uyğun Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu isə Nehrəmə gediş-gəliş üçün çox rahat şərait yaradıb.

Nehrəm kəndinin turizm potensialından istifadə onun yerləşmə mövqeyi, malik olduğu turizm ehtiyatları və yerli sakinlərinin qonaqpərvərliyinə əsaslanır. Bu baxımdan Nehrəm kəndinə təşkil olunacaq turların səmərəliliyini və onların tanışlıq-rekreasiya cazibədarlığını müəyyən etmək üçün test turları və bunların əsasında gələcəkdə Naxçıvan Muxtar Respublikasının bu yaşayış məntəqəsində turizmin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Turların əhəmiyyəti bir də ondan ibarətdir ki, Nehrəm kəndinə indiyə qədər sırf turizm məzmunlu turlar təşkil olunmadığından buradakı potensial istifadə olunmamış qalıb.

Nehrəm kəndinə təşkil olunacaq turlar arasında ilk olaraq tanışlıq məzmunlu turları göstərmək olar. Bu kənddəki qədim dini obyektlər, kəndin qədim tarixi küçələri, burada xalqımıza xas olan yaxşı qorunub saxlanılmış el adətləri, görkəmli ədib Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi ekskursiyaya gəlmiş turistlərdə böyük maraq doğurar. Bundan başqa, Nehrəmdə mövcud olan fermer təsərrüfatları ilə tanışlıq da turistlər, xüsusən tələbə-gənclər arasında maraqla qarşılanar.

Nehrəmə təşkil olunacaq turlar üçün gələcək perspektivlər kəndin, bütövlükdə, muxtar respublikanın daha yaxşı tanıdılması baxımından əhəmiyyətlidir. Kəndin Naxçıvana çox yaxın məsafədə olması, sakinlərinin qonaqpərvərliyi, əkinçilik və bostançılıq ənənələri burada maraqlı tanışlıq turları üçün imkanlar yaradır.

Şübhəsiz, hər bir layihənin çətinliyi vardır. Nehrəmə potensial turizm destinasiyası kimi baxdıqda kəndlə tanışlıq üçün ekskursiya xəritəsinin olmaması, kəndarası taksi xidmətinin çatışmaması, kənddaxili küçələrin, xüsusən qədim məhəllələrdə adların yazılmaması və ekskursiyalarda təcrübəsizlik faktorunu qeyd edə bilərik. Bununla yanaşı, Nehrəm kəndinə təşkil olunacaq turlar, ümumən, muxtar respublikamızın hər bir guşəsinə turizm marşrutlarının hazırlanması və əsaslandırılması baxımından əldə olunmuş təcrübəni genişləndirməyə imkan verir.

Bu il Naxçıvanda turizm mövsümü uğurla başlayıb. Görülən işlər, qəbul olunan mühüm qərarlar artıq öz bəhrəsini verməkdədir. Müxtəlif məqsədlərlə diyarımıza səyahət edən yerli və əcnəbi turistlərin sayı yüz minlərlədir. Önümüzdəki ildə isə Naxçıvan İslam mədəniyyətinin paytaxtı kimi tarix və mədəniyyət həvəskarları olan daha çox sayda turisti qəbul edəcək. Naxçıvanın yaxşı tanınmış digər turizm mərkəzləri kimi, Nehrəm kəndi də turistləri qarşılamağa hazırdır.

**Əli CABBAROV**

*Ruhun qidası*

# Rəqslər milli sərvətimizdir

Bütün xalqların mədəniyyət incisi olan rəqs sənəti qədim tarixə malik olmuş, əsrlərlə yaşamış, inkişaf etmiş və insanların ictimai həyat tərzinin, estetik zövqünün ayrılmaz hissəsinə çevrilmişdir. Hələ ibtidai icma quruluşunun ilk mərhələlərində insanlar əllərini bir-birinə vuraraq ahəngdar səslərin müşayiəti ilə rəqs etmişlər.

Azərbaycan xalqı uzun əsrlərboyu rəngarəngliyi və coşqunluğu ilə insanı valeh edən rəqslər yaradıb. Xalqımızın xoreoqrafiyasında müxtəlifxarakterli saysız-hesabsız kişi və qadınların tək, qoşa, kütləvi rəqsləri yer alıb. Bu mənəvi sərvət sadədən mürəkkəbə doğru uzun inkişaf mərhələsi keçib. Həmin mərhələni keçərək günümüzə qədər yaşadılan "Cəngi" və "Uzundərə" rəqsləri barədə bu yazımızda sizə məlumat verəcəyik.

***"Cəngi"*** cəngavərlik yerişini, meydanoxumanı, döyüşə çağırışı ifadə edir. Onun yaranma tarixi çox qədimdir. Böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov yazırdı: "Əfsanələrdə məlum olur ki, "Cəngi" hələ Koroğlu dövründə zurnanın əzəmətli səsi və təbilin gur sədası ilə düşmənləri sarsıdarmış, döyüşçülərdə cəngavərlik əhval-ruhiyyəsi doğurar, onları qəhrəmanlıq şücaəti göstərməyə və düşmən üzərində qələbəyə çağırardı".

Qeyd etmək lazımdır ki, bu rəqs "Cəngi" sözünün həqiqi mənasına uyğun rəqs olmayıb. Lakin müəyyən dərəcədə onu qəbul etmək olar ki, "Cəngi" zurnanın, neyin qulaqbatıran əzəmətli, ruhlandırıcı marş səciyyəli döyüş yürüşünü, hücumunu ifadə edən rəqs olub. Vaxtilə döyüşçü libasında gənclər dövrə qurub, zəncir xətti tərzində toplaşıb, geniş, sıçrayışlı hərəkətlərlə "Cəngi" rəqsini oynayıblar. Təəssüf ki, tarixdən bizə bu barədə çox az məlumat gəlib çıxıb. Lakin bu da bir faktdır ki, son zamanlara qədər "Cəngi" sədaları altında pəhləvanlar əvvəlcə əl-qolun açılması üçün rəqsi məşq edər, sonra da güləşərdilər. Hətta deyilənlərə görə, muxtar respublikanın Ordubad rayonunda "Cəngi"nin sədaları altında zorxana-gücsınama yarışları keçirilər, toppuzlarla oynayar, iştirakçılar iki-üç pud ağırlığında daşları atıb-tutar, yüyürə-yüyürə bir-birinin çiyninə hoppanar, sonra rəqibinin kürəyini yerə vurana qədər güləşərdilər.

Bəzi mənbələrdə belə qeyd edilir ki, "Cəngi"nin tam cilalanmış, müəyyən edilmiş vahid musiqisi olmayıb. O, xarakter cəhətdən eyni olan "Qaytağı", "Halay" kimi musiqi əsərləri qrupundandır.

"Cəngi"dən ilk dəfə Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov "Koroğlu" operasında istifadə edib. Üzeyir Hacıbəyovdan sonra bir sıra bəstəkarlarımız da onu öz əsərlərinə daxil ediblər. Hətta Soltan Hacıbəyov, Qara Qarayev tərəfindən ayrıca musiqi pyesi şəklində rəngarəng "Cəngi"lər də yazılıb.

***"Uzundərə"*** isə cazibəli, zərif və lirik rəqsdir. Bu rəqs səsləndirilən məclislərdə deyilən bir fikri çox eşitmişəm: "Bu rəqs, elə bil, gəlinin oynaması üçün yaradılıb". Bu incə Azərbaycan rəqsi nəinki ölkəmizdə, eləcə də ölkə hüdudlarından kənarda da sevilərək ifa edilir.

"Uzundərə" rəqsinin tarixi olduqca qədimə söykənir. Mənbələrdə qeyd olunur ki, Qarabağda Ağdamla Göytəpə kəndi arasında bir dərə var ki, ona "Uzundərə" deyilir. Həmin kəndin yaşlılarının dediyinə görə, bu rəqsin adı həmin dərənin adından götürülüb. Rəvayətə görə, Uzundərə tərəkəmə adlanan köçəri bir qəbilənin düşərgəsi olmuş, onlar dağlar qoynundakı otlaq yerlərinə, yaylağa gedərkən yolüstü burada dincəlmişlər. Buraya qonşu kəndlərdən də qonaqlar gələr, dostluq əlaqələri ilə sıx bağlı olan köçərilərə baş çəkərmişlər.

Başqa bir rəvayətdə isə deyilir ki, gəlin aparanda həmin dərədən keçərmişlər. Burada bir qədər dayanar, bəyin qohumlarından olan qadınlar gəlinin qarşısında oynayar, xoşbəxtlik, əmin-amanlıq və cansağlığı arzulayarmışlar.

Fikrimizcə, rəqsin ifa tempini, strukturunu nəzərə alsaq, ikinci rəvayət həqiqətə daha uyğundur. Yuxarıda da qeyd etdiyim kimi, bu rəqsi dinləyən hər kəs onun sanki gəlinlərin ifası üçün yaradıldığını düşünür. Digər yöndən isə "Uzundərə" rəqsi lirik, incə bir melodiyadır ki, onu qızğın təbiətli, qüvvətli və cəld köçəri rəqsi ilə deyil, gəlinə həsr edilmiş toy rəqsi ilə əlaqələndirmək daha məntiqlidir.

Keçmişin toy adətlərindən, yəqin ki, çoxlarının xəbəri var. Gənc nəslin nümayəndəsi olaraq mən də həmin toylara şahidlik etməsəm də, evdəki yaşlı nəslin nümayəndələrinin o barədə danışdıqlarından az-çox həmin mühit haqqında məlumatlanmışam. Bu gün elə bir insan olmaz ki, keçmişin həyat tərzi, qayda-qanunu barədə məlumatlı olmasın və həmin illəri indiki dövrlə müqayisə etməsin. Ən azından maraq hissi onu bu işə, bu düşüncəyə sövq etmişdir. Keçmişdə bəy evində çalınan kişi toyu üç gün davam edər, dördüncü gün isə qadınlar yığışardı. Qadın toyunda isə musiqiçilər də qadınlardan təşkil olunardı. Toyda gəlin duvaqda, üzü örtülü halda oturardı. Toyun qurtarmasına yaxın onu oynamağa dəvət edərdilər. Gəlin duvağı üzündən götürər və "Uzundərə" rəqsini oynayardı. Hətta bəzi rayonlarda gəlin bu rəqsi milli geyimdə ifa edərdi.

Baxmayaraq ki, rəqsin xarakteri, musiqisi və xoreoqrafik kompozisiyası qadın ifası üçün daha səciyyəvidir, lakin onu kişilər də ifa edirlər. Hətta bəzi bölgələrdə bu rəqsin tempi, ritmi və üslubu olduğu kimi qalsa da, tamamilə fərqli melodiyada səslənir. Kamal Həsənovun "Qədim Azərbaycan xalq rəqsləri" adlı kitabında qeyd edilir: "Bölgələrin birində "Uzundərə" adlı yallı, özü də tez templi oyun yallısı olub, onu biri kişilərdən, digəri qadınlardan ibarət iki cərgə oynayıb. Kişilərin yallıbaşısının əlində balaca bir çubuq, qadınların yallıbaşısının əlində isə bir cib dəsmalı olub".

Bəli, Azərbaycan xalqı dünyanın ən zəngin mədəniyyətinə sahib olan xalqlardan biridir. Bu, bizə bəxş edilən mənəvi sərvətdir. Gəlin məsələyə belə yanaşaq, elə muxtar respublikamızdan misal gətirəcəyəm. Hər birimiz şəhərimizin xarici qonaqları ilə tez-tez yolda, restoranda, yaxud da festivallarda qarşılaşırıq. Çox uzağa getməyəcəyəm, elə Novruz bayramı ərəfəsində, hər addımda xarici qonaqları görmək adi hala çevrilmişdi, xüsusilə də şənliyin baş tutduğu "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində. Orada olan xarici qonaqların bizim milli rəqslərimizin ifa tərzini bilmələri, hələ hamının qarşısında meydançaya düşüb onu ifa etmələri, yaxud da xalq mahnı və rəqslərimiz səsləndiyi zaman onu ayırd edib dəqiqliklə adını demələri bizim üçün qürurverici bir hal olmalıdır.

✍ **Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 17 iyul 2017-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4144 | 2418 | 7674 | 31,7 |
| 2. | Babək rayonu | 10 420 | 7982 | 24 476 | 30,7 |
| 3. | Ordubad rayonu | 1 671 | 1388 | 3783 | 27,3 |
| 4. | Culfa rayonu | 6 048 | 3901 | 10 961 | 28,1 |
| 5. | Kəngərli rayonu | 4 364 | 3349 | 9838 | 29,4 |
| 6. | Şahbuz rayonu | 1 591 | 101 | 256 | 25,3 |
| 7. | Sədərək rayonu | 2 440 | 1571 | 5033 | 32,0 |
| 8. | Naxçıvan şəhəri | 954 | 682 | 1868 | 27,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31 632** | **21 392** | **63 889** | **29,9** |

***Naxçıvan Muxtar Respublikasında iqtisadi səmərəlilik baxımından gəlirli sahələrdən olan üzümçülüyün elmi əsaslarla inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu sahəyə ildən-ilə dövlət qayğısı artırılır, fermer təsərrüfatları yaradılır, yeni üzüm bağları salınır. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasında aparılan elmi-tədqiqat işləri bu baxımdan mühüm elmi-praktik əhəmiyyətə malikdir.***



*Yeni nəşrlər*

## Üzümçülüyün elmi əsaslarla inkişafına dəyərli töhfələr verəcək tədqiqat əsəri

Bu günlərdə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər üzrə elmlər doktoru Varis Quliyev və AMEA Genetik Ehtiyatlar İnstitutunun Meyvə bitkiləri şöbəsinin rəhbəri, aqrar elmlər üzrə fəlsəfə doktoru Mirzə Musayevin müəllifi olduqları "Naxçıvan Muxtar Respublikasının üzüm genofondu və seleksiyası" monoqrafiyası üzümçülüyün inkişafına dəyərli töhfələr verə biləcək elmi əsər kimi diqqəti cəlb edir.

Monoqrafiya giriş və 6 fəsil olmaqla, 269 səhifədən ibarətdir. Kitabda üzümçülüyün dünya miqyasında, həmçinin Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında müasir vəziyyəti, əsas tədqiqat sahələri, aqrar sektorda əhəmiyyəti və gələcək inkişaf istiqamətləri öz əksini tapıb. Muxtar respublikamızda üzümün ekoloji problemləri təhlil edilib, həmin problemlərin həlli yolları göstərilib. Bununla bərabər, Naxçıvanda üzüm genofondunun ampeloqrafik tədqiqinin nəticələri, introduksiya olunmuş üzüm sortlarının biomorfoloji və aqrobioloji xüsusiyyətlərinin tədqiqi ilə bağlı geniş məlumatlar diqqəti cəlb edir. Bölgədə aparılan üzüm seleksiyasının əsas istiqamətləri, seleksiya yolu ilə alınmış iqtisadi əhəmiyyətli yeni sortların tədqiqinə əsaslanan yeni üzüm sort və formalarının ampeloqrafik təsviri də oxucuların marağına səbəb olacaq. Monoqrafiyanın sonunda əldə olunmuş elmi nəticələr, təkliflər yer alıb, elmi nəticələrin ümumiləşdirilməsində müvafiq cədvəllərdən, sxem, diaqram və histoqramlardan, fotoşəkillərdən istifadə edilib.

Qeyd edək ki, monoqrafiya bölgədə üzüm genofondunun kompleks tədqiqinə və seleksiya problemlərinə həsr olunmuş ilk elmi əsərdir. Yeni nəşrdə muxtar respublika ərazisində yayılan yabanı üzüm biotiplərinin – 92 aborigen, 23 introduksiya olunmuş üzüm sortunun, həmçinin seleksiya yolu ilə əldə edilmiş klon və formaların biomorfoloji, aqrobioloji xüsusiyyətləri, iqtisadi qiymətləndirmənin nəticələri öz əksini tapıb. Kitabda aborigen sortların morfogenetik analizlərinin nəticələri, yeni hazırlanmış üzümün ampeloqrafik rəqəmsal təyini üsulu və poliploid formaların alınması üçün metodikalar, həmçinin Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına təqdim edilmiş yeni sortların təsvirləri verilib.

Elmi əsər magistrlər, doktorantlar, elmi işçilər, üzümçülüklə məşğul olan fərdi təsərrüfat sahibləri, fermerlər üçün əsaslı elmi mənbə rolunu oynayır.

✍ **Rauf KƏNGƏRLİ**

## Uşaqlar tibbi müayinədən keçirilib

***Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası tərəfindən Culfa rayonunun Ərəzin kəndində uşaqlar kütləvi profilaktik tibbi müayinədən keçirilib.***

Pediatr, stomatoloq, nevropatoloq, dermatoloq və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 40 nəfər uşağa tibbi xidmət göstərib, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb. 50 nəfərədək valideynlə səhiyyə maarifi işi aparılıb, uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilib, uşaqların həkim məsləhətlərinə əməl etmələrinin vacibliyi tövsiyə olunub.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar məntəqə işçilərinə metodik köməklik göstərilib.

Digər kəndlərdə yaşayan uşaqların da kütləvi profilaktik tibbi müayinədən keçirilməsi nəzərdə tutulub.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

## Boksçularımız beynəlxalq turnirdə üç medal qazanıblar

***Türkiyənin İğdır şəhərində keçirilən "15 iyul – şəhidlər gecəsi" beynəlxalq boks turniri başa çatıb. Turnirdə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının 4 idmançısı da mübarizə aparıb.***

Beynəlxalq turnirdə ev sahibi Türkiyə ilə yanaşı, Ukrayna, Özbəkistan, Qazaxıstan və Gürcüstan boksçuları da mübarizə aparıblar. İdmançılarımızdan ən uğurlu nəticəni İbrahim Cəfərzadə və Məhəmməd Məmiyev əldə ediblər. Belə ki, hər iki dəri əlcək sahibimiz bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər. Digər boksçumuz Rasim Rzayev isə yalnız finalda məğlub olaraq ikinciliklə kifayətlənib. Turnirdə 2 qızıl və 1 gümüş medal əldə edən boksçularımızın çıxışı yerli idman ictimaiyyəti tərəfindən alqışlarla qarşılanıb.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim olunub.

Qeyd edək ki, boksçumuz İbrahim Cəfərzadə iyulun 26-da Türkiyənin Samsun şəhərində keçiriləcək boks üzrə peşəkarlararası Avropa çempionatında mübarizə aparacaq.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 572